**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

**ATİB İDARƏ HEYƏTİNƏ YENİ SƏDR SEÇİLDİ**

**No: 10/03/120**
**17.03.2010**

17 mart 2010-cu ildə Excelsior otelində Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) Ümumi Yığıncağının növbəti iclası keçirildi.

Prosedura uyğun olaraq Ümumi Yığıncağın iştirakçıları tərəfindən iclasın sədri və katiblər seçildi, həmçinin iclasın gündəliyi təsdiq edildi.

Gündəliyə uyğun olaraq əvvəlcə ATİB İdarə Heyətinin 2009-cu il üzrə hesabatı iclas iştirakçılarına təqdim edildi. Daha sonra Təftiş Komissiyasının 2009-cu il üzrə fəaliyyəti barədə hesabat, Komissiya tərəfindən təqdim edilmiş rəyə əsasən Birliyin 2009-cu il üzrə illik balansı və maliyyə hesabatları iclas iştirakçıları tərəfindən təsdiqləndi.

İclas zamanı Birliyin Nizamnaməsinin 9.2.3. bəndinə əsasən İdarə Heyətinin tərkibi və İdarə Heyətinin sədri seçilməsi məsələsinə baxıldı və aşağıdakı qərarlar qəbul edildi:

1. Fatimə Aslan (ATTAS / Anglo-American şirkətlər qruplarının Alyansı) – İdarə Heyətinin sədri
2. Oruc Heydərov (AB Standard QSC) – İdarə Heyətinin üzvü
3. Cemal Yangın (İstanbul Çarşı Import Export Ltd) – İdarə Heyətinin üzvü
4. Ali İhsan Genç (Turquoise MMC) – İdarə Heyətinin üzvü
5. Ali Ağan (Azercell Telecom MMC) – İdarə Heyətinin üzvü
6. İhsan Fatoğlu (Fatoğlu Istehsal Azərbaycan Ltd. Şirkəti BM) – İdarə Heyətinin üzvü
7. Rəşad Rəsullu (ATİB Baş katibi) – İdarə Heyətinin üzvü
8. Vüqar İsmayılov (Konsalting az MMC) – İdarə Heyətinin üzvü
9. Ali Apaydın (fiziki şəxs) – İdarə Heyətinin üzvü
10. Kenan Köse (AKAT İnşaat MMC) – İdarə Heyətinin üzvü
11. Resul Doğan (Mozart Kafesi) – İdarə Heyətinin üzvü

İclasda Təftiş Komissiyasına yeni üzvlər seçildi və tərkib aşağıdakı kimidir:

1. Pərviz Məmmədov (CLC MMC) – Təftiş Komissiyasının sədri
2. Kamran Mehdizadə (Mixaylo KM) –Təftiş Komissiyasının üzvü
3. İlham Alməmmədov (Behrud) –Təftiş Komissiyasının üzvü

İclasda Birliyin Nizamnaməsinə əsasən 2004-2010-cu illərdə ATİB İdarə Heyətinin sədri vəzifəsini tutmuş və səlahiyyət müddəti başa çatmış Ahmet Erentok Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) Fəxri Sədri seçildi.

İclas iştirakçıları həmçinin ATİB-in 2010-cu il üçün ştat cədvəli və büdcəsini təsdiq etdilər.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**